Həmid Herisçi

## Mehdi Hüseynzadənin Sonu

Bu yaz...
bu yaz mən heç kimi
sevmədim...
heç kimi...
hətta 1 milyon reyxsmarkalıq
öz kəlləmi,
mənə qəhbə gətirmiş bu xoş gecəmi,
“mersedes”imin yan güzgüsündən gördüklərimi,
neynim, daha sevmədim,
Ancelikamı da Triyestin çirkab sularına
itələdim...

Müxalifət qəzetlərinin
manqal yelpiyinə çevrildiyini,
silahdaşlarımın xəyanətə meyilləndiyini,
Mazellinin əsayla öz şlyapasını düzəltdiyi an
güllələndiyini
görüb

azcana gülümsədim...
bu yaz mən heç kimi,
hətta yaralarımı sarmış qoca həkimi,
Ancelikaya soxuşdurduğum yalançı
həyat hekayətimi
sevmədim...
Üzərində “Axtarışdadır!”yazılmış
öz şəkillərimə bütün öz qara kölgələrimlə birgə
axır ki, tam bənzədim...
Kimsəni daha sevmədim...

Cəhənnəmə aid
qanlı meyid-canlı meyid,
dilçilərin aşkarlamadığı
qalın samit,
incə sait
səslər,
yad nəfəslər,
işkəncə otağına gedən
uzun dəhlizlər,
yordu məni...
100 minlik ordu məni
axtarır, tapa bilmir...
Dünyanı partladıram,
restoranlar, kinoteatrlar silkələnir...

Ancaq axırda gəlib dirənir,
bu işlər bircə cümləyə -
- bu yaz mən heç kimi sevmədim...

həə... demək, indi mən gərək
lap dərindən fikirləşim,
Vasilislə, Ancelikayla çopur qayalara
söykənim...
ləpələrin tərcüməsində,
kölgələrin cütləşməsində,
qara çəkmələrimin şər sifətində
indi hekayətimi eşidin...

hə, məndə birləşmişdi
həm İmam Mehdi, həm də İmam Hüseyn...
demişdi bunu mənə, hə, bir madumazel qadın-fröylen,
ancaq mən kimsəni sevməmişdim bu yaz...
demək, nə qədər hoqqabaz, kəndirbaz
olsam da, öz qara əlcəyini atmışdı mənə
həyatın özü...
Triyestin küçələrindəki pişiklərin şeytan gözü...

Triyest qazanxanalarının boz tüstüsü,
göyə qalxmağı bacarmır...

SS-çilərin mersedesi yolunu azır,
bir an
şəhərin ən oğraş mənzərələrini işıqlandırır...
Axırda məni tapır...
gözlərim bir cümlə yazır-
- “bu yaz mən heç kimi sevmədim, inan!”...
Gülləbaran başlanır bundan sonra, Ancelika,
gülləbaran...

## SUİTİ

Bakıda elə nəhəng divarlar var...
Buyur, götür, dibində bütöv bir milləti
sıraya düzüb qır,
güllələ...
Sabah “ANS-press” xəbər yayar-
-:boşa getməyib orda
bircə güllə”...
Sən isə hiylə işlət belə dar məqamda,
hiylə...
Get ora, bir azacıq yat, mürgülə...
görəcəksən sakitlikdir tam...
Bakının lap ucqarlarında
tozu çırpılan xalça-palazların
səsini də eşidərsən orda...
Görərsən, kimsə sağ qalmayıb
bu həyatda...
Hətta,
həyat da...

Sən bu divarların dibində
bir ömür qədər susarsan,
itə çevrilib kölgələrə cumarsan,
bir fahişə tapmaq eşqiylə
yüz dollarını xırdalayarsan,
pusarsan
AZPETROL xəzinəsini yarmış quldurları,
qusarsan
milli mətbəximizin hamısını...
Öz qanını...
xatırlayarsan
necə
inqilabçı atan
üzüb getmişdi Bakıdan
Xəzərin düz ortasına qədər...
Ancaq, qəzavü-qədər,
Bir də Xəzəri qoruyan
bığlı, qoca suitilər
dişləmişdilər atanı...
Xatırlayarsan
1 saylı Bakı xəstəxanasını,
qarnına 40 iynə vurulmuş
o əziz insanı...
atanın
sonrakı həyatını...

***

Neftçi buruq ustaları,
eşitmişəm,
suitiləri
qarmaqla tutardılar
Pirallahı adasında...
Ciyərini çıxarıb, leşini
Xəzərə atardılar...
Dadlıymış, deyirlər
suitinin qanlı ciyəri...
Sonra yatardılar bu neftçilər,
“KASPAR” gəmiçilik idarəsinin
aşbaz qadınlarıyla...
Hə, mən buna, varam...
Hə, bunu bacarmadı atam...
Aleksandr Belovun :Amfibiya-adam”
kinofilminə bir də baxsam,
atamı o İxtiandra oxşadaram,
onu dişləmiş suitini
tanıyaram...
Qan damır indiyəcən
o suitinin sallaq, iti
bığlarından...

1995-ci il. Zindan. Gecələr. Müstəntiq məni dindirir.
Əlimi ümiddən üzmüşəm.

Hərflərdə gözəllik var…
bəlkə onlarla ancaq
şer yazmaq olar,
bəlkə hərflərlə yazılmış
bütün başqa yazılar
əlifbaların təhqiridi,
cır- cındır çəkmənin
gərəksiz təmiridi,
bizim bu fani dünya
cinayət qohum-əqrəbasının oğlan
tərəfidi…

Yoldaş müstəntiq,
sizə verdiyim ifadələri
dəftərinizə hərflərlə
yazmayın,
həyat qazanındakı mənim payımı
götürüb ona-buna paylayın,
ömür evimə giribsinizsə,
orda çəkmələrinizi çıxarın….
Qışqırmayın!
qışqırmayın…
Bütün ağacların
qocalmış gül-çiçək olduğunu anlayın,
əl saxlayın….

İndi dünyada yollar yox,
ancaq küçələr var…
sizin mənə verdiyiniz bütün ittihamlar,
sözlərinizdəki bu uzun hecalar,
nəyə gətirib çıxaracaq?
paltar geyməyi kəfən geyməyin
hazırlığına oxşatsaq,
insan onsuz da cəza çəkir,
söz bircə məndən getmir…

Hər bir adam,
hər bir müsyo, hər bir madam
qocala bilməyəndə ölür,
bəlkə, yalnız qocalmaq ölümü öldürür,
bəlkə heç kim ölmür,
hamı ancaq öldürülür…

Deyirlər sizin rəis
rüşvət götürmür…
bu şəhərə
söz şəkilçisi kimi qoşulan kəndlərdə
dünyanın keyfini görür…

Mənə səkkiz il düşür.

Nərmin

Kamal

## ALLAHI BAĞIŞLAMA

Bir gün
Allah bizdən üzr istəyəcək
Bir gün
həyatın gətirdiyi oyunlar,
hər gün yeni düyünü açmaq çabası
keçidlər
yeni sevgilər
üsyanlar
göz yaşları
çörək savaşları
batmayıb ayaqda qalmaq,
yaşamaq və yaşatmaq qovğası
intiqam almaq ehtirası
ala bilməməyin yası
artıq dözülməz olanda
tək və gücsüz uzananda qəsəbə səkilərində
Allah üzr istəyəcək bizdən
Bağışla

-deyəcək, qızım
bağışla ki,
sənə yaxşı tale vermədim
təəssüflər içində keçir ömrün
bağışla, mənim balam
-deyib hönkürəcək
Mən onu başa düşəcəyəm,
qolumu qaldırıb sarılacağam boynuna
üç dəfə yüngülcə
kürəyinə vuracağam əlimlə
eybi yox, deyəcəyəm,
Eybi yoxdur
Əlini saçlarımın arasına salıb dolacaq,
bunu belə sarışın etmədim,
bunu belə qıymadım sənə- deyəcək,
Yaxşı, belə də sevənlər oldu mənim
qara saç da pis deyil- deyəcəyəm
-Peşman olmuşam,
sevdiyin pişik balalarını belə yaşatmadım
üçünü bir gecədə öldürdüm,
-Bəsdir, deyəcəyəm, üzmə özünü
başqalarının da pişikləri ölür,
hətta uşaqları ölür
Allahın boğazı qəhərlə dolacaq
daha möhkəm hönkürməyə başlayacaq
acizəm, bağışla
-təkrar-təkrar bunu hıçqıracaq
mən də ona qoşulacağam
-yaraşmaz sənə kiçilmək
bəsdir, onu sakitləşdirməyə çalışacağam,
bundan daha pis həyatlar var
narahat olma, yaxşıdır hər şey- deyib
gözlərini siləcəyəm
allahı əfv edəcəyəm

Rasim Qaraca

Siz ey, ordakılar
uzaq planetlərdə yaşayan humanoidlər
nə olar
sözümü eşidin,
səsimə səs verin nə olar…
1 nömrəli uşaq evi
ünvan Bakı
Rüstəm Rüstəmov küçəsi 66
uşaqların sayı 120
onlardan 70-i yetim
ehtiyacları:
qış paltarı, yorğan və döşək, ayaqqabılar,
bir də əgər imkanınız olsa
elektrikli sobalar…
Ümidlər kəsilib Yerdən
siz ey mobil kainat gücləri
yardım əlinizi uzadın
Lənkəran uşaq evinə

uşaqların sayı 175
onlardan 175-i yetim…
sahib çıxın öz kainatdaşlarınıza
ehtiyacları var yuyucu toza,
pəncərə şüşəsi, çarpayı və soyuducuya
yun corab, yataq dəstləri, ayaqqabılar və antibiotiklərə
SOS
ey başqa dünyalılar, yad planetlilər
Şəki uşaq evində uşaqların sayı 98
onlardan 18-i yetim
qab-qacaq, çarpayı və yorğan yetərli deyil
uşaqların ehtiyacı var alt və üst geyimə, ayaqqabıya
gəlsəniz əgər
özünüzlə vitaminlər, antibiotiklər, tənzif,
sakitləşdirici dərmanlar, vərəmə qarşı preparatlar və
novokain gətirməyi unutmayın.
Siz ey şüşə ürəkli təpəgözlər
öz uçan boşqablarınızda uçub gəlin
Sabunçu rayonu Maştağa qəsəbəsi
atılmışların sayı 261
bu il övladlığa götürülmüşlərin sayı sıfır
ehtiyacları var
alt-üst geyimə, yataq dəstlərinə və ayaqqabıya
ümidlər sizədir, təkcə sizə
sığınıblar ilahi mərhəmətinizə
kar uşaqlar üçün 1 nömrəli Respublika İnternat məktəbi

Bakı şəhəri, Şərq küçəsi, ev 13
uşaqların sayı 313
onlardan 24-ü yetim
yetin, ehtiyacları var
alt-üst geyimə, yataq dəstlərinə və ayaqqabıya…
ey yad planetlilər,
üçbucaq başlı, skafandrlı canlılar,
qalaktikalararası yardım servisləri,
elektron sxemalı robotlar…
2 nömrəli Mərdəkan yetim uşaqlar evi
uşaqların sayı 310
çatışmır çarpayı, yorğan və don,
ağrıkısici iynələr, spirt, novokain, burun-boğaz dərmanları,
prednizalon…
Siz ey, ordakılar,
özünüzü yetirin,
Suraxanı rayonu, 4-cü mədən küçəsi,
7 nömrəli internat məktəbi
əlaqə telefonu 20 45 60
məktəbin direktoru Fərhad Həsənov
uşaqların sayı 238
bu il övladlığa götürülənlərin sayı 0
yetimə sahib çıxan ey uca varlıqlar,
ey pəri üzlülər, mələk qanadlılar,
ehtiyacları var bu uşaqların
vur-tut yorğan döşəyə və çarpayıya

bir də, olsa-olsa, əyinlərinə geymək üçün paltara…
Əzizbəyov rayonu, Şüvəlan qəsəbəsi,
Almaz İldırım küçəsi 43a
uşaqların sayı 185
onlardan 11-i yetim
corab, yataq dəsti və ayaqqabı gətirin,
bir də vitaminlər, antibiotiklər, ağrıkəsici dərmanlar,
yod, spirt, pambıq və bitə qarşı şampun…
Sumqayıt şəhəri, 5-ci mikrorayon,
əlil uşaqlar üçün internat məktəbi
uşaqların sayı 156, onlardan 50-i yetim,
çarpayı, yorğan və döşək yetərli deyil
uşaqların ehtiyacı var
alt-üst geyimə, ayaqqabıya və qarın dolusu yeməyə.
bir də, gəlirkən yolda
antibiotik, vitamin, tənzif, yod, spirt, pambıq,
ağrıkəsici tablet, revanol və
bitə qarşı şampun almağı unutmayın.
Bilirəm
minnət qoymadan yaxşılıq etmək əlinizdən gəlir
saat qurğusuna oxşayan diş-dişli ürəyinizdə
kimsəsiz cocuqlara sonsuz acıma var
vaxtı bada vermədən
bir göz qırpımında gəlin Ordubada
Rəfiyev küçəsi 1, M. Füzuli adına İnternat məktəbi
uşaqların sayı 350
onlardan 20-i yetim
həkimə ehtiyacı olanların sayı 100
lazer saçan gözlərinizin önündə bir an canlandırın
yetərli sayda deyil çarpayı, yorğan, döşək və ayaqqabılar
oynamağa oyuncaq tapmırlar
antibiotiklər, vitaminər, ağrıkəsici preparatlar
bir də bitə qarşı şampunlar.
Culfa rayonu, Əjdəroğlu adına internat məktəbi
burada 182 uşaq möhtacdır
alt və üst geyimə, yataq dəstlərinə, ayaqqabılara
dərs kitabları, dəftər-qələm, diş pastaları və diş fırçalarına
Əziz Humanoidlər
Lənkəran şəhərindəki Xüsusi İnternat məktəbinin də
sponsora ehtiyacı var
onlarda da çatışmır alt və üst geyim, yataq dəstləri
ayaqqabılar, diş pastası, diş fırçası və oyuncaqlar,
antibiotiklər, vitaminlər, bitə qarşı şampunlar,
tənzif, yod və spirt.
Siyəzən rayonu İnternat məktəbi
uşaqların sayı 250, onlardan 150-si yetim
necə deyim
bəlkə siz onlara donorluq edəsiniz
məktəbin əsaslı təmirə, paltaryuyan maşına, yuyucu toza,
çarpayı, televizor, soyuducu və elektrik sobasına ehtiyacı var,
uşaqların qış paltarı, yataq dəsti, ayaqqabı, dərs ləvazimatı və
oyuncaqlara,

bir də antibiotiklərə, vitaminlərə, bitə qarşı şampunlara,
yod, spirt, pambıq və ağrıkəsici dərmanlara.
Tovuz rayonu İnternat məktəbi,
ünvan Qovlar qəsəbəsi, Vağzal küçəsi 8,
məktəbin direktoru Elmira Tağıyeva
cib telefonu 320 13 58
uşaqların sayı 520
onlardan 50-si yetim
dava-dərmana ehtiyacı var 300 nəfərinin.
Siz ey ordakılar,
uzaq planetlərdə yaşayan insanlar,
özünüzü yetirin!
Elektrik sobası, su qızdırıcılar,
paltar sabunu, boşqab dəsti və pəncərə şüşəsi,
ətcə bəbələr üçün paltar, yataq dəsti, ayaqqabı və oyuncaqlar
öz uşaqlarınızın geyilmişlərindən olsa da olar,
bir də antibiotiklər, vitaminlər, bitə qarşı şampunlar,
sarğı materialı, yod, spirt, pambıq və ağrıkəsici dərmanlar…
Biləsuvar rayonu Axundov küçəsi 112, İnternat məktəbi
uşaqların sayı 363
onlardan 66-sı yetim
bu il övladlığa götürülmüşlərin sayı sıfır
ümidləri təkcə sizədir
Siz ey başqa dünyalarda yaşayan canlılar,
hay verin, dadlarına çatın, məktəbin əsaslı təmirə,
paltaryuyan maşına, yuyucu toza,
çarpayı, televizor, soyuducu və elektrik sobasına,
uşaqların qarın dolusu yeməyə, alt və üst geyimə,
yataq dəstlərinə, ayaqqabıya, diş pastası və oyuncağa,
antibiotiklərə, vitaminlərə və bitə qarşı şampuna ehtiyacı var.
Siz ey uzaq ulduzlarda yaşayan sivilizasyonlar,
naməlum uçan obyektlərinizdə gəlin,
ey əntarili madamlar, slindirli müsyolar,
Qusar şəhəri İnternat məktəbi
uşaqların sayı 173
diş-damaq xəstəliklərindən əziyyət çəkənlər 50…
elektrik sobası, su qızdırıcılar, paltar sabunu və bir kisə buğda
unu
çox şey istəməzlər qorxmayın,
olsa, olsa, qış geyimi, yataq dəsti, ayaqqabı və bir az da diş
məcunu
antibiotiklər, vitaminlər, bitə qarşı şampun
yod, spirt, pambıq, ağrıkəsicilər və tənzif
bir də özlərini asmağa ip…
Neftçala şəhəri, Üzeyir Hacıbəyov küçəsi 4
Mehman Səfərov adına İnternat məktəbi
uşaqların sayı 474
onlardan 34-ü yetim
paltryuyan, yuyucu toz, çəngəl-bıçaq, və çarpayı,
corab, yataq dəsti, ayaqqabı,
antibiotiklər, vitaminlər, bitə qarşı şampunlar,
yod, spirt, pambıq, bir də ağrıkəsici dərmanlar.

Goranboy rayonu İnternat məktəbi
uşaqların sayı 229
onlardan 37-i yetim
50 nəfəri xəstə…
elektrik sobası, su qızdırıcı, yataq dəstləri, çarpayılar,
qış paltarı, ayaqqabılar, antibiotiklər, vitaminlər,
bir də…bitə qarşı şampunlar.
Şamaxı rayonu İnternat məktəbi
Məmməd Əmin Rəsulzadə küçəsi 25
uşaqların sayı 492 onlardan 454-ü yetim
paltaryuyan maşın, sabun tozu, çarpayı, televizor, soyuducu,
bir də bilirsiniz, qış paltarı, yun corab, yataq dəstləri, ayaqqabılar,
antibiotiklər, vitaminlər, ağrıkəsicilər və bitə qarşı şampunlar…
Qazax şəhəri, Mehdi Hüseyn adına İnternat məktəbi
ünvan Sabir küçəsi 150
direktorun adı Qasım
uşaqların sayı 804
onlardan 76-sı yetim
elektrik sobası, su qızdırıcı, paltar sabunu,
stol, stul və çarpayıya ehtiyacları var,
bir də gələrkən özünüzlə alt və üst geyimi, yataq dəstləri,
ayaqqabılar, antibiotik, vitamin, tənzif, yod, spirt, pambıq,
ağrıkəsici dərmanlar, təzyiqölçən, birkərəlik şpris
və bitə qarşı şampun gətirsəniz çox yaxşı olar.
Göyçay rayonu
Səməd Vurğun adına İnternat məktəbi

Ünvan; Rəsul Rza küçəsi 130
şübhəniz varsa, əlaqə telefonunu verirəm 5 11 19, kod 267
uşaqların sayı 345, onlardan 111-i yetim, 20-si əlil
bu il
övladlığa götürülənlərin sayı sıfır
ehtiyacları var pəncərə şüşəsi, dam örtüyü, soba, çarpayı və qazana
qış paltarı, yorğan, döşək, ayaqqabı, corab və sairəyə
antibiotiklərə, ağrıkəsicilərə və bitə qarşı şampuna.
Bağışlayın, uzunçuluq edirəm,
ey uzaq planetlərdə yaşayan canlılar
rəhman və rəhim olan Allahın bəndələri
ey kimsəsizlər səcdəgahı qərib kimsənələr
Ağdaş rayonu İnternat məktəbi Azadlıq küçəsi 92
uşaqların sayı 370, onlardan 150-i yetim
pəncərə şüşəsi, dam örtüyü…
paltar, yataq dəsti, ayaqqabılar…
tənzif ağrıkəsici və bitə qarşı şampunlar.
Lerik rayonu İnternat məktəbi
əlaqə telefonu; 5 47 81, kod 257
uşaqların sayı 311
onlardan 51-i yetim
4-ü əlil
övladlığa götürülən yox
cərrah bıçağına möhtaclar 10
pəncərə şüşəsi, dam örtüyü, paltar sabunu,

çarpayı, qazan və elektrik sobasına ehtiyacları var
bir də corab, ayaqqabı və paltara
antibiotiklərə, vitaminlərə, ağrıkəsicilərə
yod, spirt, pambıq və bitə qarşı şampunlara…
Mingəçevir şəhəri İnternat məktəbi
ünvan Üzeyir Hacıbəyov küçəsi 1
uşaqların sayı 260
onlardan 93-ü yetim
kainatın dibindən qopub gəlin
sayın yupiterlilər
möhtərəm neptunlular
ehtiyacları var bu tifillərin
pəncərə şüşəsi, dam örtüyü və məftillərə
corab, yataq dəsti, ayaqqabıya
pambıq, yod, spirt və bitə qarşı şampuna.
Salyan şəhəri Tağıyev küçəsi 22
Azər Səfərov adına İnternat məktəbiu
uşaqların sayı 383
onlardan 100 nəfəri yetim
ehtiyacları – alt və üst geyim
yataq dəstləri və ayaqqabılar
dərs kitabları (mars dilində olsa da olar) dəftər və qələm
bitmədi hələm
antibiotiklər, vitaminlər, yod, yataq dəsti, spirt, pambıq və
ağrıkəsicilər
revanol, novokain, birkərəlik şprislər və bitə qarşı şampunlar.

Zaqatala rayonu Sülh küçəsi, əsas İnternat məktəbi
direktorun adı Fəxrəddin
əlaqə telefonu 5 31 85, kod 274
uşaqların sayı 327
onlardan 6-sı yetim…
dam örtüyü, pəncərə şüşəsi və mismar
qış paltarı, corab və ayaqqabıya ehtiyacları var
çatışmır
ağrıkəsici preparatlar, antibiotiklər, birkərəlik şprislər
yod, spirt, pambıq və bitə qarşı şampunlar…
Balakən şəhəri Rafiq Səmədov küçəsi 21
rayon İnternat məktəbi
uşaqların sayı 283
elektrik sobasına, qış paltarına, sarğı materiallarına
yod, spirt, pambıq və ağrıkəsicilərə
bitə qarşı şampuna
bir də əgər pulunuz çatsa
dərs kitablarına ehtiyacları var.
Quba rayonu, Zərdabi kəndi
yetim və valideyn himayəsindən məhrum olan uşaqlar üçün
İnternat
uşaqların sayı 136
qış paltarı, soba, yataq dəstləri, antibiotiklər və ağrıkəsicilər
bitə qarşı şampunlar, yod, spirt, və pambıq
bir uşaq ürəyindəki ağrını azalda biləcək nəyiniz varsa.
Siz, ey uzaq planetlərdə yaşayan lar

Bakı şəhəri Bakıxanov küçəsi 37
körpələr üçün 1 nömrəli uşaq evi
uşaqların sayı 90
onlardan 80-i yetim
yetimlərdən 25-i qonur saçlı
14-ü mavi gözlü
qız uşaqlarının sayı 54
orta yaş həddi 3
uşaq evinin sponsora ehtiyacı var
ümidləri kəsilib Yerdən
çarpayı, yataq dəsti, soba, qış paltarı, ayaqqabı və kleyonka
tənzif, yod, spirt, diş pastası,
antibiotiklər və bitə qarşı şampunlar göndərin…
Siz, ey ordakılar
uzaq dünyalarda yaşayan humanoidlər
səsimə səs verin nə olar
Şəki İnternat məktəbi
ünvan; Axundov küçəsi 162
uşaqların sayı 56
56-sı da yetim…

## Tavan

konserv qutusundan külqabısı
yağ tənəkəsindən oturacağı vardı dostumun
qəzetdən süfrə sərdi
bankada çay dəmlədi
qəndi yarıya böldük
döşəmə yırğalanırdı
sanki gəmidə idik
ayağa qalxanda başım tavana dəydi

## Külqabı

bu səfər
içinə kül tökmədim
tum qabığı atmadım
bu səfər
qırılmış muncuq dənələrini toplayıb
qoydum külqabına
qaranlıqda işıl-işıl muncuqlar

## Pul

o qoca qadın
hər addımda ayaq saxlayıb
yerdəki kağız qırıntılarını gözdən keçirir
bu böyüklükdə şəhərdə
heç pul itirən yoxmu

## Azan

səhər erkən
azan səsinə oyanıb yuxudan
axirəti deyil
uca yaradanı
kosmik təfəkkürü deyil səni
səni düşünürəm nədən

## Ulduzlar

ulduzlar göz-gözə durub
göylərin bizə ümidi var
biz insanların ən sonda
nəsə qeyri-adi bir şey edəcəyinə
inanarlar

A l y o ş a

moskva yaşılında qatar və
həkimim əyri-üyrü mavisiylə
bir də qadın əli verdi dilindən
gözümdən buludları üfləməliymiş həm
və soruşdu ki, atan heç aşiq olmuşdumu, xatırladım
üzüm tarlaları və moskva qatarı keçdi mavidən
anamın zümzüməsiylə

atam moskva qatarında yaşayıb
ağacları pəncərədə enən yaşıl bir vaqon
siqnal səsinə bütün sərçələr oyanar və pişik bilərmiş
evimizə moskva qatarından əl atar
böyümüşdük, əli ancaq dizimizə çatardı
biz üzüm tarlasında uşaqlıq
bədənimiz oyunlara batar, bütün çöl-bayır sünbülə

moskva qatarında tanrıya rastlayıb
sapsarı səsində yol bitməz, qarlı
öləndə də əzbərləyərdi ona yazdığı şeiri
anam həvvaydı

moskva qatarına tanrı unudulmuş bir nağılın alması
bütün kişilər dirilmiş səsindən dinləmiş üzünü
geri dönənlər ev böyüklükdə qaya

moskva yaşılında qatar atamdan uzun və qan damarı kimi ürəyə
    axar
bu uzun yolun bəzi anlarında həyat durub gözünün içinə baxar
öləndə də əzbərlədiyi o şeiri ağlında qurcalayıb başlamış
    yaşamağa

uşaqlığıma berezkada dayanan sarı ekarus ayrılığın rəngini
    soldurmuş
bir arayışda ruhi sarsıntı qeydləri nə vaxtsa işə yaramış
tanrı xatırlandıqca dirilib onu oxşamış, öpmüş ağzının içini
dayımdan, çaxır da varmış, qırmızı qanı öyrəndim

uşaqlığımda hər kəs böyükdü, ağaclar, divarlar, stolpalar,
    qonşunun iti güclü, hürər və yatardıq

dünya bizi yuxusunda görüb, əsərdi, dağ da üşüyərmi, ulduzlar
    gölməçələrə dəlinərdi
qatardan bir qızı olmuş, atamın qatarından qız

bəlkə zaman da dayanar gəlsən
otursan bir küncdə göl olar xalça
lotosları da xatırlayaq
yeyərik əllərini soyar portağal
həm gecə də var bir küncündə dizlərin

gecə nağılsa səslərindən sərçələr tutar üzümü
elə yerindən öpsəm ki, ənəl-həq
xəritəni su basar sahilə vurar kapitanlar
sən portağallar olarsan uşaqlığımda
quşlarla samalyotlar toqquşmazdılar

birazdan böyüdük qonşumuzda
həyat bir az afrika bir az o qatar
dağlar portağallar atar adı həsən
nənəsinin nağılında axar bu çay, eynən belə

çar ruleti dərsində gözünə girmiş
hər müəllim portağaldı adı həsən

sobaların qışı da donar əlində
nəyi yandırsaq ki, çıxar günəş
o zil saçlardan axıb tökülən
yuxulu kişilərdi yataqları yox
qovulub təbiət anasından, belə

## “Hollaj”

şeirindən bir hissə

...
dəliliyi leqallaşdırıram dövlət kəliməmdə
(dövlət sözündə inorqanik insan var)

nəsə olma(lısan?)

(zeynəbin wifi-si var, bəlkə pişiyi də, bəlkə sev+gilisi də, bəlkə də
zeynəb özü yoxdu, bəlkə elə pişikdi, zeynəb bir pişiyin yuxusun-
da sev+gilisinə qoşulur.
Zeynəbləşmiş pişik xatırladır ki, modem də evcil sev+gilidi.)

O divarın adı Satılır`dı
daşdan sementdən və fəhlənin zamanından kapital
bəlkə də zeynəbin pişikliyi yuxlayıb Satılır`ı
Satılır ən əlvidasında neçə zeynəbin atası var, pensiyenerdi
yəni belə: ölə bilməmək üçün gözdən yayılma

üç günlük dünyasan, taksidi çatma hissi ya da uzaqlaşma

## Yarımada-m

1

Ruhundan çıxarılan analıq qısır torpaq parçasıdı—yarımadam
Yenidən böyüməyin pərdəsi kirli, günəş yorğun doğmaq istəmir
mavini
ən qırıq yerində səsin keçmişlik bağlayır şüuru
öl de paltarlarımızdan çıxıb divə gedək
it hürən tərəfdə güllə açılır göyə
o hürüşmələr çıxıb tanrıya göstərir işığı

2

İşğal edilmiş sözlərdən evini götür və yerinə
Daha sevgili olmamış oğlunun bədənini qoy bir
Mərmi girib yaşasın dəmir dövrlərin xarabalığı kimi ki
Çıxıb üstündə günəşi oyuq hərfləriylə oxusun

3

Təbii ki, müüüəəəllliiimmm,
Təbii ki bunlar yoxdu bizim təsəvvürümüz pozulub aynayla
Yoxsa kim ölmək üçün doğlub ki???
Sabah da, sabahın sabahında da cücərmiş ümid eynini oxuyur
Və məndə çoxalan təkbətəklər hələ də y-a-ş-a-y-ı-r-r-r-r
Başqa nə etmək olar ki
Götür əllərimi bədənin olsun,
Böyütsən bəlkə tanrı da olar və yaradar gözlərini və cığırlayar yollarını
Sən də o sözlə olarsan var
İndi qayıtmaqdayıq nağılımıza, almalar yolda və inanıram ki tikanları hazır kirpinin
İlk deyilməli olan ən rahat nəfəs
ən uşaq nəğmədə tərəddüddə q-ə-h-r-ə-m-a-n
Və yenidən səhərin günəşi axır almalanmağa
adamın sevdiyim gülüşüdü tanrıçılıq
adamda sevdiyim yola düşüb tanrıçılıq
tanrıda ölübdü k-ə-d-ə-r
tanrı uşaqlaşmamış doğumdu heyif ki
böyüyüb adam olmağı vəzifə alacaq
bu ölməyin adı haradasa cızılıb, oxu mənə
yadıma sal ilk hərfi həriflənməyi
bu heca sənin harandansa başlayır, sözləndirə bilmirəm, acizdi olmaq, sevin
İndi bitəcək səs və əbədi s-ü-k-u-t

4

Biz bu gün də söz verdik adam olmağa
Anamız yola su verdi yol çay dəniz gördü
Gəmi oldu ayaqlarımdan üzüb bir qadına itdi
Biz bu gün də oyandıq günəş şahid gözlərimizə
Hara baxsaq rəng olar o anın qəhvəyi qırmızısı
Uzaqlaşar taksidə zaman tənha məkan
Böyüyəmmədik
ərikdə qaldı əlimiz

5

olmağın əlyazısıdı bədən aynaya bölünüb
yad kimi oxumağa çalışar üzünün əslini, alnının yenisini
gecə röyaya qaçmış bir barmaq əskik ovucunda
təbəssümmüş uzun illər adı
baxıb görməkdədi üzbəüz ölüsü
düşüb qalıb ağız kənarlarında
təkcə başı getmişdi yuxuya
doğulmaqdan əl çəkmiş dünyanı
atıb harasa vurnuxur
çıxarır yataqdan əli oyuncaq qolunu
oyuncaq qırır oyunu
buraxıb evə gedir atasız

G ü n e l

M ö v l u d

Pəncərələrini yağışa qapamış evin
Qapılarını küləklərə bağlamış həyətin
Yelkənlərini tufana açmış gəminin
Bir də qalın divarları
Düşmənə dayanmış şəhərin
Arxayınlığı var içimdə

Səbrim bu qədər sonsuz
Kinim bu qədər dərindi…
Sənsə başını burax, dost
qoy qadınların
Döşləri arasında ehtiras əvəzinə
Dərman şüşəsi saxlayacağı
Vaxtlara qalsın bütün sevişmələr

qoy atalarını
Bir parça çörək dərdinə yox
Böyük savaşlara səsləyən
Çocuqlar doğmasın ölkəmin qadınları

qoy sevgini, sevgilini
Hamıdan, hər şeydən sonraya
Saxlasın kişilər

Biz onsuz da bilirik
O qədər uzun deyil bu həyat

Kimsə öləndə
onun paltarını ortaya töküb ağlamayın daha
İnanın - bütün bu paltarlar, ağılar, şəkillər
Ölümə uğursuz dekordur
Ölümün üzü nəm divar kimidir, ana
Suvaq, boyaq götürməz
elə həyat da uğursuz parodiyadır
bizə qədər yaşanmışlara...

## Öküz qanı

...
Sabahın soyuğunda
O yan-bu yana qaçan küçə itləri
Narın tüklü bədənlərini qızışdırırdılar
Yol uzunu isə
Laklı, taxta, satılıq it evcikləri düzülmüşdü
Heyvanlarını əzizləyən insanların
Ərköyün itləri üçün…
Beş addım o yanda
Varlıların yekəqarın evləri
Çoxmərtəbəli gözləri ilə
Üstən aşağı baxırdılar
Yaxınlıqdakı yoxsul komaların üzünə
Bir yandan da sən…
Amma o komaların kədərinin yanında
Sənin kədərin nəydi ki?

Yol gedirdik
Sabahdı, sübhdü, ertədəndi
Səhərin alaqaranlığında
Yüz insanı doyurmaq istəyən dörd kişi
Nəhəng bir öküzü yerə yıxıb
Başını kəsirdilər
Şırnaq-şırnaq torpağa axırdı,
torpağa hopurdu öküz qanı
Dəhşətə gəldim
İlk dəfə ağlıma cinayəti
öldürülən canlının gövdəsi ilə
ölçmək gəldi ağlıma
düşündüm ki,
bu nəhəng, qara öküzü bıçaqlayan
dörd insandan
çox-çox daha az qatildir
barmağı ilə qarışqanı basıb əzən qız
ayağının altındakı kərtənkələni tapdayan qarı
toyuğun başını üzən oğlan
öküzə baxdım, sənə baxdım
bədəninin iriliyinə baxdım
səni öldürsəm, adi insanları öldürənlərdən
daha çox qatil olardım demək
amma qorxmadım
dörd kişinin bıçaqladığı öküzün yanında
səni öldürmək nəydi ki?
...

X a q a n i
H a s s

## Dünyanın Tank Hissəsi

çörək qabını açdıq ki…
bir qaranlığın ən tünd yerində
sirk atlarıyla şumlanıb təxəyyülümüz
əmanət kimi səpilib buğda.
baxdıq ki…
yunun beş min illik sap azadlığıdır
xalçaya toxunan naxış
demir, günahın əlyazmasıdır.
əlimizi sürtüb nə gördük…
dünya ərazisinin tank hissəsidir torpaq
və coğrafiyanın üzünə qoyduğu ləkə
minaya düşmüş dovşan qanıdır.
mənzərənin üzünə çatmamış
səhvən
ümid sözü çıxdı ağzımızdan
ümid çoxaldı.

## Biçin

qapımı açmışdım su gəlsin sudan o taya keçim
o taydan yeyin gəldilər əllərində dəryazları
addımların böyüyüb dedilər üzün çoxalıb dedilər

## Şəkil

soldakı anamın çürük kartoflara cavabdehliyidir
sağ tərəfdəki qara kərpicdən üzüdür atamın
ortadakı mənəm – qapı aralığında boşluq

## Ekvator

ağzı dondurmalı oturub eyvanın qırağında
qıçlarını ekvatora sarı yelləyən uşaq,
Yaxın Şərqə tərəf çox açma ayaqlarını

## Kukla

müharibə elə doldurur ki uşağın yuxusunu
qollarını necə qaldırsın kukla və hara?
özü də xalat geyindiriblər özündən böyük

## İşıq

ikiotaqlı köhnə bir ölümün qapısında uzun–uzadı
savaşlarda söykənəsən deyə böyütmüşəm çiyinlərimi
işığı görcək yola çıx yüklükdə qat–qat gözləyən güvə

## Köç

son stansiyada dayanan kimi qadının üzü
bir yorğun dağ düşdü içindən yaxasında gül
dağ gözlərim yorğunu zanbaq miladdan əvvəl

## Bağça

təzəcə çıxıb gedib çiyinlərdə ölü evindən ölü
susmur qadının zümzüməsi güllərin arasında
bilmirik hələ ki ölüm nə aparıb çiçəkliyindən

## Büt

duayla örtürük gözlərimizi mağaralarımızda
daşdan gəlib yaxından baxır gülərüzlü büt
quşundan son dəfə qopmuş qu qanadına

## Ölkə

xiyabanda şəhid heykəlini güldürür uşaq
şux geyimli mürdəşir yem atır göyərçinlərə
üstündən adlayır kişilər səkidə cücərən gilənarın

## Qırmızı

bütün rənglərin başqa rəngi qırmızıdır
qırmızının başqa rəngi qırmızıdır
həyatın başqa rəngi qırmızı,
ölümün başqa rəngi qırmızıdır
qırmızı çağırır – insanı həyata,
insanı özünə, insanı ölümə
və zülmü iqtidara
quşu gülləyə çağıran odur

nə öskürək yaşılı nə təbəssüm sarısı
nə qadın tənhalığından ağ-qara
nə kişi qorxaqlığından tünd qəhvəyi-
bizə qırmızını yalnız qırmızı öyrədir
qırmızını özü oyrədir

əllərindən su içib böyümüşük, qırmızı
gələcəyə inanmağı
gilas yığaraq öyrənmişik döşlərindən
dizlərindən öpüb diz çökməyi
gözlərindən öpüb ayaq üstdə ölməyi
tanımışıq

təkcə sən danışa bilərsən, qırmızı
başqa rənglərin sözü tükənib
bir sözünlə təzədən doğulacaq
bir baxışınla dan yerindən axacaq
qaranın həqiqi rəngi

A q ş i n

Y e n i s e y

## Sabahdan bütün cinayətkarlar mənəm

Diktator olacaq cocuqları analar doğmurlar
diktator olacaq socuqları qadınlar qusurlar
öz bətnlərindən
səhərin gözü açılmamış iğtişaşdan sonra
küçələrdə tökülüb qalmış daş-kəsəyi süpürən bu qarı
elə bil gecənin özünü süpürüb bir yerə toplayır və
zülməti, qaranlığı boğmağın daha bir yolunu kəşf edir
öz yorğun süpürgəsiylə.

Sabahdan mən də Bakı küçələrində qan tökəcəyəm
qan töküldüyü yerin təkcə rəngini dəyişmir
həm də adını dəyişir
qan mənasız axan zamanı saxlayır tarixə çevirir.
Sabahdan mən də Bakı küçələrində qan tökəcəyəm
polis məmurunun evinə soxulacağam
(evimə soxulacaq polis məmuru)
arvadının yanında qanına qəltan edəcəyəm onu
(arvadımın yanında qanıma qəltan edəcəklər məni)
ürəyim balaca uşağın nəlbəkiyə töküb üfürdüyü
isti çay kimi soyuyacaq.

Sabahdan mən də Bakı küçələrində qan tökəcəyəm
cibimdə qətlə yetirəcəyim adamların siyahısı.
Artıq üstümdə qansız bir bıçaq gəzdirirəm
adam öldürəcəyəm və bir daha sübüt edəcəyəm ki
pis adamlar heç vaxt yaxşı ölmürlər!
Ölməməlidilər də!!!

Sabahdan bütün cinayətkarlar mənəm!

## Vətəndaş nikahında yaşayanlar üçün iki nəfərlik fəlsəfə

İndi bir cinayət hadisəsiyəm mən,
H.Hacıyev küçəsində törədilmiş,
bir az qaçıb gizlənmiş qatiləm,
bir az yas yerində çərənləyən möminəm
bir az rüşvətxor müstəntiq, bir az qorxmuş şahid
bir az hadisə yerindən tapılmış bıçağam
bir az küçəyə axmış qanam,
bir az qan axmış küçəyəm,
bir az fotoqrafam,
sevgilimin üstündən qaldırıb, gətiriblər:
cinayət işinə tikiləcək şəkillər çəkirəm,
bir az hadisə yerindən
guya laqeydcə keçən qorxaq sakinəm
bir az da müxbirəm, sırtıq və yoxsul.

Mən özümü də
başqasını öldürmək yanğısıyla öldürəcəyəm
mən özümə doğma adam deyiləm

masadakı çaxır şüşəsi,
kətilin üstündəki qadın çantası,
boş prezervativ qutusu,
televizordakı tanınmaz kişi meyitinin fotosu və s.
Bunlar hamısı boş şeylərdir, əsas məsələ,
Nəfəsini dərmədən yaşamaqdır, uşaqlar sayaq.

Məncə insan bir az quşdan ibarətdir
bir az güldən, bir az itdən,
bir az da tutaq ki, taxtabitidən
insan sevəndə quşdur, yatanda gül və s.
İnsan öldürəndə kimdir sualına
törətdiyi cinayəti boyuna almış qatil cavab verəcək

“İnsan uşaqlığında daha çox başqalarını öldürür –
möhtərəm hakim,
uşaqlıq bizə özümüzdən zəifləri
öldürmək üçün verilmiş
lisenziyadır.
Milçəkləri, quşları qırmaq, böcəkləri tapdalamaq-
bunlar uşaqlıq cinayətləri deyilmi?
başqasını öldürmək uşaqlıq ehtirasıdır”

Mən özümü də uşaqlıq ehtirasıyla öldürəcəyəm
mən özümə doğma adam deyiləm.

## nəsiminin soyulmuş dərisi haqqı

keçən əsrin 70-ci illərində, ərdəbil şəhərində.
inqilabçılar minlərlə polisi yaxalayıb
cinsiyyət orqanlarını kəsdilər
mən o vaxt çox uşaq idim
üstündən otuz il keçdi
bu yaxınlarda yenə ərdəbil şəhərində üç gözəl tələbəni
qaldırıcı kranın dimdiyindən asdılar
mən indi çox qocayam
nəsiminin soyulmuş dərisi haqqı…

uşaqları çox sevdiyimdəndir ki,
istəmirəm onlar bu dünyaya gəlsinlər
hamilə qadınlardan zəhləm gedir
elə atalarımız da bizi ona görə böyüdüblər ki,
onlar öləndə biz də onların şəkillərin böyüdək
sən demə, adamlar ölmürlər, adamları öldürürlər
atam öləndən sonra ayaqqabıları geyilməməkdən çürüdü
paltosu geyilməməkdən köhnəldi
atam öləndən sonra biz onu unutmağa başladıq
tez-tez xatırlamaq şərti ilə
nəsiminin soyulmuş dərisi haqqı…

mənim yaşadığım “8-ci kilometr” qəsəbəsində
bir ev uçdu, içində yaşayan əclafı öldürdü
sən demə bu adam gecələr altını batırıb
öz nəcisi ilə evin divarlarına
ən müqəddəs şeylərin adını yazırmış
qonşular danışırdılar ki,
ev boğaza yığılıbmış onun əlindən
nəsiminin soyulmuş dərisi haqqı…

qadın kişinin vətənidir - deyib
bütün qadınlarının ərazi bütövlüyünü dəstəkləyirəm
qonaq olduğum mehmanxanada
çox kişinin yatdığı fahişənin çiyninə toxunub
“bacı, sağ ol, mən getdim”- dediyini eşitdim
burda bir sirr olduğunu düşündüm
nə vaxtsa bütün fahişələr
bütün kişilərin bacısı olub yəqin
hərdən beynimdən qadın zorlamaq keçir məncə bu olardı əsl
ehtiras aksiyası
etiraz aksiyasını dağıdır əli dəyənəkli polislər
“hökumət evi”nin qarşısında
necə ki, sığırçınlar didib-dağıdır at nəcisini

içindəki buğda dənələrinə görə
nəsiminin soyulmuş dərisi haqqı…

biz balıq doğrayanda,
meyvə qabığı soyanda
bıçağın qəfil əlimizi kəsməsinə
adi hal kimi baxmamalıyıq
doğradığımız balıq,
dərisini soyduğumuz meyvə də
bu cür alır qisasını bizdən
nəsiminin soyulmuş dərisi haqqı…

o ölkədə ki, allah sözü silah sözü ilə qafiyələnir,
qolboyun olur
o ölkədə mən yaşayıram
yaşayıram deyəndə ki, şorba içir,
çarpayıya dirsəklənir
və dişlərimin xorla ağrımasına qulaq asıram
heç bir dinə inanmıram
məncə “kafirlər” qır tiyanında qaynayacaqlarsa
“möminlər” də həmin tiyanın altına çör-çöp daşıyacaqlar
ancaq bu o demək deyil ki,
mən adamların gözü önündə
yeraltı keçidlərdə, uşaq bağçalarının arxasında
avtobus dayanacaqlarında
it kimi cütləşməliyəm səninlə…